**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**

**“08 ” fevral 2022-ci il tarixli**

**F-53 №-li əmri ilə təsdiq edilmişdir.**

**İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**

**Tədbirlər Planı**

| № | Tədbirlər | İcraçılar | İcra vaxtı |
|---|---|---|---|
| 1. | “İrəvan Müəllimlər Seminariyasının milli təhsil tariximizdə yeri və rolu” mövzusunda tədbirlərin (“dəyirmi masa”lar, seminarlar, görüşlər, sərgilər, disputlar və s.) keçirilməsi | İnkişaf layihələri sektoru, Ümumi təhsil sektoru, ümumtəhsil müəssisələri | fevral-may |
| 2. | Görkəmli maarifpərvər ziyalı Firidun bəy Köçərlinin İrəvan Müəllimlər Seminariyasında müəllim kimi fəaliyyəti ilə bağlı Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında məktəblilərin iştirakı ilə görüşün təşkili | İnkişaf layihələri sektoru, Ümumi təhsil sektoru, ümumtəhsil müəssisələri, Uşaq-gənclər inkişaf mərkəzləri | fevral |
| 3. | “XIX əsrdə regionda dünyəvi təhsil verən İrəvan Müəllimlər Seminariyasının müəllimləri və məzunları” mövzusunda məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri arasında esse müsabiqəsinin keçirilməsi | Ümumi təhsil sektoru, İnkişaf layihələri sektoru, Uşaq-gənclər inkişaf mərkəzləri | sentyabr-noyabr |
| 4. | İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi ilə bağlı tədbirlərin kütləvi informasiya vasitələrində işıqlandırılması, Seminariyanın tarixi və məzunları haqqında verilişlərin təşkili, “Azərbaycan müəllimi” qəzetində və “Azərbaycan məktəbi” jurnalında məqalələrin dərc edilməsi | İctimaiyyətlə əlaqələr sektoru, ümumtəhsil müəssisələri | il ərzində |